# Yeni ilin ilk günlərində Qəbələdə əsl bayram ab-havası yaşanıb



Qəbələ rayonu coğrafi quruluşu və müasir turizm infrastrukturuna görə isti yay fəsli ilə yanaşı, soyuq qış aylarında da turistləri özünə cəlb edir. Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə bayram tətilində rayonun turizm məkanlarına üz tutan yerli və xarici turistlər qarlı dağlarda motorlu xizəklərlə, kanatla gəzmək və buz üstündə xizəklə sürüşmək kimi arzularını Qəbələdə gerçəkləşdiriblər.

Həmin günlərdə rayonda əsl bayram ab-havası yaşanıb. Bütün otellərdə, istirahət və əyləncə mərkəzlərində turistlərə xüsusi hazırlanmış əyləncəli şou proqramlar təqdim olunub. Qonaqların istirahətinin şən və mənalı təşkili üçün otellərdə, "Qəbələnd" istirahət və əyləncə mərkəzində yüksək səviyyədə şərait yaradılıb, tanınmış musiqiçilərin iştirakı ilə konsertlər, müxtəlif əyləncəli tədbirlər keçirilib.

Yerli və xarici turistlər Qəbələnin zəngin tarixi, müasir şəhərsalma mədəniyyəti və ləziz mətbəxi ilə yaxından tanış olublar. Qəbələyə üz tutan yerli və xarici turistlər təkcə rayon mərkəzini gəzməklə kifayətlənməyib, dağlıq ərazilərdə yerləşən kəndlərin mənzərəli guşələrinə də səyahət ediblər.

Bayram günlərində rayonda dincəlməyə üstünlük verən xarici turistlər arasında MDB, Avropa və ərəb ölkələrindən olanlar da var.

**"Qəbələ"**

# «Qış nağılı» adlı tamaşa hazırlanmışdır

Qəbələ Mədəniyyət Mərkəzində yaradılmış "Şəms" uşaq teatrı 31dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibəti ilə "Qış nağılı" adlı yeni tamaşa hazırlayaraq balacalara təqdim etmişdir.



Kiçik yaşlı uşaqlar üçün nəzərdə tutulan tamaşada Şaxta baba, Qar qız və müxtəlif nağıl qəhrəmanları balaca tamaşaçıların qonağı olmuş, onlara bol-bol sevinc bəxş etmişlər.

**Süsən RÜSTƏMLİ,**
**şəhər 4 nömrəli məktəbin şagirdi.**

# Novruz, Ramazan və Qurban bayramları ilə bağlı qərar qəbul olunub

Dekabrın 19-da Azərbaycan Respublikasının Nazirlər Kabineti 2019-cu ilin Novruz, Ramazan və Qurban bayramları günlərinin müəyyən edilməsi haqqında qərar qəbul edib.

Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 dekabr tarixli Fərmanının 2-ci hissəsinə əsasən, 2019-cu il martın 20, 21, 22, 23, 24-ü Novruz bayramı, iyunun 5, 6-sı Ramazan bayramı, avqustun 12, 13-ü Qurban bayramı günləri müəyyən edilərək qeyri-iş günü hesab olunacaq.

# Bu il iki dəfə Ay tutulması hadisəsi baş verəcək

Azərbaycan Milli Elmlər Akademiyasının NəsrəddinTusi adına Şamaxı Astrofizika Rəsədxanasından AZƏRTAC-a verilən məlumata görə bu il iki dəfə Ay tutulması hadisəsi baş verəcək.

Məlumatda bildirilir ki, Ay tutulmalarının biri tam, digəri isə qismən olacaq.

İlk Ay tutulması yanvarın 21-də saat 07:34-10:51-də müşahidə ediləcək. Ay tam tutulsa da, Azərbaycanda görünməyəcək. Bu təbiət hadisəsini Mərkəzi Sakit Okean, Amerika, Afrika və Avropa ölkələrində izləmək mümkün olacaq.

Qismən Ay tutulması isə iyulun 17-də saat 00:03-dən 02:59-dək olan vaxtı əhatə edəcək. Həmin hadisə Azərbaycanda da müşahidə olunacaq. Həmçinin Cənubi Amerika, Avropa, Afrika, Asiya, Avstraliya və Rusiyada da görünəcək.

# Nic qəsəbəsində Milad bayramı qeyd olunub

Hər il yanvarın 7-də bütün dünyada pravoslav xristianları tərəfindən İsa peyğəmbərin mövludu günü - Milad bayramı qeyd olunur.

Nic qəsəbəsinin sakinləri olan udilər də bu günü özünəməxsus şəkildə qeyd edirlər.

Həmin gün onlar qəsəbədəki "Cotari" alban-udi xristian kilsəsində təşkil olunan bayram mərasiminə toplaşıb.

Tədbirdə alban-udi xristian dini icmasının rəhbəri Robert Mobili, kilsənin keşişi Rafik Danakari və icmanın üzvləri çıxış edərək Milad bayramının mahiyyətindən, tolerantlıq diyarı olan Azərbaycanda dini ayinlərin icrası üçün yaradılan şəraitdən, dövlətimizin onlara olan diqqət və qayğısından danışıblar.

Müsəlmanların və xristianların mehriban, birgə yaşadığı Nic qəsəbəsinin bu gün tolerantlığın kiçik modeli hesab edildiyini bildirən alban-udi xristian dini icmasının rəhbəri Robert Mobili məlumat verib ki, bu gün qəsəbədə udilər öz dilini, dinini, adət-ənənələrini qoruyub saxlayır, onların təhsil aldıqları ümumtəhsil məktəblərinin ibtidai siniflərində udi dili tədris olunur. Kilsədə bütün dini ayinlər onların ana dilində icra edilir.





Bayram mərasiminə toplaşan udilər rayonda onlara qarşı heç bir ayrı-seçkiliyin olmadığını, qəsəbədəki "Cotari" alban-udi xristian kilsəsinin əsaslı şəkildə bərpasının ölkədə tolerantlıq mühitinə gözəl nümunə olduğunu qeyd ediblər.

Çıxışlardan sonra kilsədə şamlar yandırılıb, dualar oxunub, bayram süfrəsi açılıb.

Qəsəbədə yaşayan müsəlman əhalinin nümayəndələri də mərasimə qatılaraq Milad bayramı münasibətilə udiləri təbrik ediblər.

**"Qəbələ"**

# Tibbi sığorta haqqında qanuna dəyişiklik

Yeni təkliflər xidmətlər zərfinin baza hissəsi üzrə təqvim ili üçün adambaşına 29 manat sığorta haqqının ödənilməsini nəzərdə tutur.

Təklif edilən ödənişlər kateqoriyalardan asılı olaraq, dəyişir.

Xidmətlər zərfinin əlavə hissəsi üzrə Milli Məclis, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qurum tərəfindən təyin olunan şəxslər, həmçinin seçkili ödənişli vəzifədə işləyən şəxslər üçün sığortalı tərəfindən hesablanmış əməyin ödənişi fondunun 2 faizi, sığortaolunan tərəfindən işçinin əməkhaqqının 2 faizi qədər sığorta haqqı təklif edilir.

Xidmətlər zərfinin əlavə hissəsi üzrə eyni sığorta haqqı məbləği neft-qaz sahəsində fəaliyyət göstərən və dövlət sektoruna aid edilən sığortalılarda Əmək Məcəlləsinə uyğun olaraq, bağlanmış və hüquqi qüvvəyə minmiş əmək müqaviləsinə əsasən işləyən şəxslərə də aid edilməsi təklif edilir.

İşləməyən və sahibkarlıq fəaliyyəti ilə məşğul olmayan hallarda - 18 yaşınadək şəxslər, peşə, orta ixtisas və ya ali təhsil müəssisələrində əyani təhsil alan 23 yaşınadək Azərbaycan vətəndaşları, əmək pensiyası alan, sosial müavinət almaq hüququna malik olub əmək qabliyyəti olmayan şəxslər, ünvanlı sosial yardım alan ailənin üzvləri, hamilə qadınlar, doğuşdan sonrakı dövr üçün ödənişli sosial məzuniyyətdə olan qadınlar, qismən ödənişli sosial məzuniyyətdə olan qadınlar üçün xidmətlər zərfinin əlavə hissəsi üzrə illik ödənişin adambaşına 120 manat olması təklif edilib.

Layihəyə görə, icbari tibbi sığortanın maliyyə mənbələri icbari tibbi sığorta haqları, dövlət büdcəsinin vəsaiti, subroqasiya hüququnun istifadəsi nəticəsində əldə edilən gəlirlər, icbari tibbi sığorta üzrə sərbəst vəsaitlərin investisiyaya yönəldilməsi nəticəsində əldə edilən gəlirlər, "İcbari sığortalar haqqında" nəzərdə tutulmuş təqvim haqqından ayırmalar, "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" qanununda nəzərdə tutulmuş sığorta haqqından ayırmalar, "Qrant haqqında" qanuna uyğun verilən qrantlar, ianələr və yardımlar, azadolma məbləği və bu qanunun tələblərinin pozulması ilə bağlı tətbiq olunan cərimələrdən və hesablanmış faizlərdən daxilolmalardır.

# Əmək pensiyaları indeksləşdirilir

Pensiyaçıların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində növbəti addım kimi, yanvar ayı ərzində əmək pensiyalarının indeksləşdirilərək artırılması təmin ediləcək. Belə ki, "Əmək pensiyaları haqqında" Qanunda əmək pensiyalarının ildə bir dəfə ölkə üzrə orta aylıq nominal əməkhaqqının illik artım tempinə uyğun olaraq indeksləşdirilməsi nəzərdə tutulur. İndeksləşdirmə Dövlət Statistika Komitəsindən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə yanvar ayı ərzində təqdim olunacaq rəsmi məlumatda 2018-ci il üzrə ölkəmizdə orta aylıq nominal əməkhaqqının artım tempi göstəricisi əsas götürülməklə həyata keçiriləcək. Pensiyaların 2019-cu ilin 1 yanvar tarixinə olan məbləği həmin göstəriciyə uyğun şəkildə və cari ilin əvvəlindən indeksləşdiriləcək artırılacaq. İlkin məlumata əsasən, 2019-cu ilin 1 yanvar tarixinə ölkədə pensiyaçıların sayı 1,3 milyon təşkil edir ki, indeksləşdirmə əsasında pensiyalarda artım onlardan təxminən 94 faizinə şamil olunacaq. Qalan pensiyaçılara isə "Əmək pensiyaları haqqında" Qanunun 20-ci maddəsindəki qruplar, yəni dövlət qulluqçuları, hərbi qulluqçular, xüsusi rütbəli şəxslər, millət vəkilləri və s. aiddir ki, onların pensiyalarının artımı qanunvericilikdə nəzərdə tutulan başqa mexanizm əsasında həyata keçirilir. "Əmək pensiyaları haqqında" Qanuna uyğun olaraq, bu ay ərzində pensiyalarla birgə, sığortaolunanların fərdi hesablarındakı pensiya kapitallarının da ötən il üzrə orta aylıq nominal əməkhaqqının illik artım tempinə uyğun şəkildə indeksləşdirilməsi gözlənilir.